

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (21.157)

*9 yanvar 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhər filialı fəaliyyətə başlamışdır



Yanvarın 8-də Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq lisenziyası əsasında "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhər filialı fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov filialla tanış olmuşlar. Filial Naxçıvan şəhəri, Babək və Şahbuz rayonlarından olan müştərilərə xidmət göstərəcək. Əsas məqsəd "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən vətəndaşlara təklif olunan bank xidməti və məhsullarının istehlakçılara birbaşa onlar üçün daha yaxın xidmət mərkəzində çatdırılması, işin daha effektiv aparılması və bank işinin səmərəli təşkilindən ibarətdir. Filialın yeni inzibati binasında qurulmuş infrastruktur istehlakçıların bank xidmətlərindən daha rahat şəkildə istifadəsinə imkan verəcək.

Filialla tanışlıq zamanı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov bildirmişdir ki, Naxçıvan şəhərindəki "İstiqlal" küçəsində fəaliyyət göstərəcək bank filialında müasir avadanlıqlar quraşdırılmış, müştərilərə yüksəksəviyyəli bank xidmətlərindən istifadə etmələri üçün hərtərəfli şərait yaradılmışdır. Bütün bank xidmətlərinin göstəriləcəyi filialda əhali, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlar onlara təklif olunan kiçik maliyyə resurslarından yararlana biləcək, plastik kartlar, müxtəlif pul köçürmələri, vergi və rüsumların ödənişləri və digər bu kimi maliyyə əməliyyatlarından istifadə etmək imkanı əldə edəcəklər. Bundan əlavə, filial tərəfindən cari ildə 100-ə yaxın yeni POS-terminalın quraşdırılması, bankomat şəbəkəsinə yenilərinin əlavə edilməsi, kredit qoyuluşunu 3,5 milyon manata çatdırmaq və digər bank xidmətləri sahəsində nailiyyət əldə etmək hədəflənir.

Xatırladaq ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin kredit portfelinin həcmi 1 yanvar 2015-ci il tarixə 27,2 milyon manat olmuşdur ki, bu kredit qoyuluşunun 7,7 milyon manatını tikinti, 6,2 milyon manatını sənaye, 3,4 milyon manatını istehlak, 2,9 milyon manatını kənd təsərrüfatı, 2,9 milyon manatını isə biznes-ticarət və digər kreditlər təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə mətbuata açıqlamasında bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında ötən 20 ildə həyata keçirilən davamlı islahatlar nəticəsində iqtisadiyyatın möhkəm təməli yaradılmış və sosial-iqtisadi inkişafın dinamikliyi təmin edilmişdir. Bu inkişaf iqtisadiyyatın bütün sahələrini əhatə edir. Əldə edilmiş uğurların təməlində dayanan amillərdən biri də budur ki, muxtar respublikada inkişafa kompleks yanaşma mövcuddur. Ötən dövr ərzində istehsal sahələrinin inkişafı istiqamətində görülmüş işlər maliyyə və bank sektorunun inkişafı ilə paralel şəkildə aparılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş mühüm dövlət proqramlarında bank sektorunun inkişafı ilə bağlı vəzifələr müəyyənləşdirilmişdir. Ali Məclis Sədri tərəfindən əhaliyə göstərilən bank xidmətlərinin növünün artırılması, keyfiyyətinin yüksəldilməsi, nağdsız ödəniş sistemlərinin inkişaf etdirilməsi, kiçik sahibkarlıq fəaliyyəti üçün kreditlərin verilməsi qaydalarının sadələşdirilməsi barədə aid strukturlara tapşırıqlar verilmişdir. Bunun nəticəsidir ki, ötən illər ərzində muxtar respublikada bank quruculuğu sahəsində də böyük uğurlar qazanılmışdır. Banklar yeni, müasir binalar və son texnologiyalara əsaslanan avadanlıqlarla təmin edilmişdir. Yaradılmış infrastruktur əhalinin bank-maliyyə xidmətlərindən rahat, vaxt itirmədən və etibarlı şəkildə istifadə etməsinə əlverişli imkanlar açmışdır.

Müslüm Cabbarzadənin sözlərinə görə, hazırda muxtar respublikada banklar tərəfindən 20 növdə bank xidməti göstərilir. Əhalinin bu xidmətlərdən daha rahat şəkildə istifadə etməsi üçün fəaliyyət göstərən bank, bank filialı və kredit təşkilatlarının sayı artırılaraq 26-ya çatdırılmışdır. Təkcə 2014-cü il ərzində şəhər və rayonlarımızda 3 yeni bank filialı fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə poçt məntəqələri vasitəsilə bütün kəndlərdə əhaliyə bank-maliyyə xidmətlərinin göstərilməsi təmin edilmişdir. Bu da vətəndaşlara yaşadıqları ərazidə bu xidmətlərdən yararlanmaq imkanı verir. Bundan əlavə, nağdsız ödəniş sistemlərinin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Artıq inkişaf etmiş ölkələrdə tətbiq edilən müasir ödəniş texnologiyalarından muxtar respublikamızda da istifadə etmək mümkündür. Bunun üçün zəruri olan infrastruktur yaradılmışdır. İri yaşayış məntəqələrimiz bankomatlarla təmin edilmişdir. Əhaliyə verilən ödəniş kartları son 5 ildə 2 dəfə artmışdır. Hazırda muxtar respublikanın hər iki sakinindən biri plastik ödəmə kartına sahibdir. Nağdsız ödəmələrin yüksəldilməsi və ödənişlərin rahatlığının təmin edilməsi üçün quraşdırılan POS-terminalların sayı son 5 ildə 20 dəfə artmışdır. Muxtar respublikada fəaliyyət göstərən banklar internet bankçılıq, mobil bankçılıq, SMS məlumatlandırma kimi müasir bank xidmətləri göstərmək imkanlarına malikdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına müvafiq olaraq, muxtar respublikadakı banklarda xidmət haqları və kreditlər üzrə faiz dərəcələri ölkənin digər bankları ilə müqayisədə ən aşağı səviyyədədir.

"Muxtar respublikada iqtisadi fəallığın ilbəil yüksəlməsi bankların da inkişafına təkan verir, yeni bank filiallarının yaradılmasına tələbatı artırır", – deyən Müslüm Cabbarzadə əlavə etmişdir ki, son 5 ildə banklarımızın müştərilərinin sayı 6 dəfədən çox artmışdır. Yeni bank qurumlarının fəaliyyətə başlaması əhalinin bank-maliyyə xidmətlərinə daha rahat şəkildə çıxışını və müştərilərə yüksək səviyyədə xidmət göstərilməsini təmin edir. 2015-ci ilin ilk günlərində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhər filialının yenidən fəaliyyətə başlaması həm də bu sahədə görülən işlərin davamıdır.

Qeyd edək ki, yeni bank filialları həm də "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsinə öz töhfəsini verir. Muxtar respublikada kənd təsərrüfatının hərtərəfli inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi və əhalinin yerli məhsullara olan tələbatının tamamilə ödənilməsi baxımından yeni bank və bank filiallarının yaradılması, onların əhatə dairəsinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

**Səbuhi HƏSƏNOV**

*"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindən biri olan təhsil müəssisələrinin reytinq sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yüzdən artıq hökumət və qeyri-hökumət təşkilatlarının iştirakı ilə "İctimai təşəbbüslərə dəstək" adlı müsabiqə təşkil etmişdir. Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı (AKTAM) "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi ilə müsabiqənin qalibi olaraq layihəni həyata keçirmək üçün dövlət sifarişi almışdır. Layihəyə əsasən, ilk dəfə Azərbaycan Respublikasının 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun reytinq cədvəli hazırlanmış, ali məktəblərin fəaliyyəti müqayisəli qiymətləndirilərək nəticələr ölkə ictimaiyyətinə çatdırılmışdır. Nəticəyə görə, Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yer tutmuş, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer almışdır.*

## Naxçıvan Dövlət Universiteti reytinqdə birinci olmuşdur



Bu münasibətlə Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə əvvəlcə universitetin yarım əsrə yaxın tarixinə, keçdiyi inkişaf yoluna nəzər salınmış, elm, tədris, beynəlxalq əlaqələr, mədəniyyət, idman sahələrində qazandığı nailiyyətlər barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu ali təhsil ocağının təşəkkülündə və inkişafında mühüm xidmətləri olmuş, ulu öndərimiz dəfələrlə universitet kollektivi ilə görüşərək tarixi çıxışlar etmiş, Naxçıvan Dövlət Universitetini Azərbaycanın ən dəyərli, qabaqcıl ali təhsil ocaqlarından biri kimi yüksək dəyərləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında" 31 mart 2007-ci il tarixli Sərəncamında isə universitetin zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə, regionun tərəqqisinə müsbət təsiri yüksək qiymətləndirilmişdir. Bu gün dövlət qayğısı sayəsində 108 hektarlıq universitet kampusunda möhtəşəm tədris binaları, elektron kitabxana, olimpiya mərkəzi, konservatoriya, tələbə və qonaq evləri, sosial mərkəz, xəstəxana yaradılmışdır.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov kollektivi təbrik edərək bu böyük uğuru Azərbaycanda, o cümlədən Naxçıvanda elm və təhsilin inkişafına göstərilən hərtərəfli dövlət qayğısının bəhrəsi kimi dəyərləndirmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı sayəsində universitetin güclü maddi-texniki bazası formalaşmış, ali təhsil müəssisəsində dünya standartlarına cavab verən, müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş tədris korpusları, internet mərkəzləri, fənn kabinələri, laboratoriyalar yaradılmışdır. Bu gün 10 fakültədə 56 ixtisas üzrə ali təhsil alan 5000-ə yaxın tələbə, magistrant və doktorant müstəqil Azərbaycanın dövlətçilik maraqlarını gerçəkləşdirə biləcək layiqli nəsil, dəyərli mütəxəssis kimi yetişir. Bu ali məktəb 80-dən çox tanınmış dünya universitetləri ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə birgə tamamlanmaqda olan "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi isə Azərbaycan ali məktəbləri üzrə ən irihəcmli layihədir.

Qeyd olunmuşdur ki, "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsində beynəlxalq səviyyədə qəbul olunmuş metodikaya əsasən, respublikanın ali məktəblərində tədrisin keyfiyyətini qiymətləndirmək məqsədilə çoxistiqamətli tədqiqatlar aparılmış, ali məktəblərin milli reytinq cədvəli beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmışdır. Reytinq tədqiqatları 20 dövlət, 12 qeyri-dövlət ali təhsil müəssisələri və Azərbaycan Müəllimlər İnstitutunun 11 filialı arasında aparılmış, hazırlanmış forma qiymətləndirilmək üçün 17 nazirlik, komitə və özəl müəssisəyə göndərilmişdir. Ali məktəblərin reytinq tədqiqatları üçün götürülmüş kompleks fəaliyyətin keyfiyyət göstəriciləri bir-birindən asılı olmayan 3 müstəqil kateqoriyadan ibarət olmuşdur. Naxçıvan Dövlət Universiteti bu kateqoriyalardan ali məktəbin akademik resursları üzrə 320, ali məktəbin daxildən müəllim və tələbələr tərəfindən qiymətləndirilməsi üzrə 192, ali məktəbin məzunlarının ölkə ictimaiyyəti, mərkəzi və regional icra orqanları, müxtəlif kampaniyalar tərəfindən qiymətləndirilməsi üzrə 287 bal toplayaraq 799 yekun balla birincilik əldə etmişdir. Bu münasibətlə "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin rəhbəri, AKTAM Təşkilatının sədri Natiq Əhmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova məktubla müraciət etmişdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Naxçıvan elmi ictimaiyyətinin əksəriyyətinin universitetlə sıx bağlı olduğunu, regionun intellekt potensialı ilə təmin olunmasında, elmi-pedaqoji kadr hazırlığında bu ali məktəbin fundamental baza rolu oynadığını vurğulamışdır. Akademik Naxçıvan Dövlət Universitetinin bugünkü səviyyəyə çatmasında göstərilən böyük dövlət qayğısından, professor-müəllim heyətinin, qocaman pedaqoqların danılmaz əməyindən, universitetə müxtəlif dövrlərdə rəhbərlik edən rektorların rolundan danışmışdır.

Naxçıvan Özəl Universitetinin rektoru, professor İsmayıl Əliyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev çıxışlarında qeyd etmişlər ki, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsilə göstərilən qayğı nəticəsində təhsil müəssisələrinin fəaliyyəti gücləndirilmiş, ali təhsil müəssisələrində tədris müasir tələblər səviyyəsində təşkil olunmuşdur. Azərbaycan Respublikasının ali məktəblərinin reytinqinin müəyyənləşdirilməsi real nəticəni obyektiv şəkildə ortaya qoymaqla yanaşı, bəzi ali təhsil müəssisələrində göstəricilərin aşağı olmasının səbəblərini, universitetlərin böyük əksəriyyəti üçün xarakterik olan problemləri üzə çıxarmaq baxımından da əhəmiyyətlidir. Bu eyni zamanda elm, təhsil sahəsində inkişafa səbəb olacaq rəqabətə də güclü təkan verəcək.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin inkişaf yolunu əks etdirən slaydlar nümayiş etdirilmişdir.

**Mehriban SULTAN**

## Dəmir yolu idarələrində nümunəvi iş şəraiti yaradılmışdır

*Yola saldığımız 2014-cü ilin dekabr ayında da muxtar respublikanın dəmir yolu infrastrukturunda xidmətin nümunəvi təşkili təmin olunmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad yol sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir. Dekabrın 26-da əsaslı təmir və yenidənqurma işlərindən sonra İnfrastruktur İdarəsi inzibati binasının açılışı olmuşdur. Üç mərtəbədən ibarət olan binada işçilər üçün hər cür iş şəraiti yaradılmışdır.*



Təbii ki, həyata keçirilən yenidənqurma tədbirləri xidmətin daha səmərəli təşkilinə şərait yaradır, dəmir yolu nəqliyyatı istifadəçilərinin sayının artmasına səbəb olur. Təkcə ötən ilin dekabr ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisində 6 min 260 ton müxtəliftəyinatlı yük daşınmışdır. Bu dövrdə sərnişin qatarlarından istifadə edənlərin sayı 12 min 529 nəfər olmuşdur.

Yerlərdə yaradılan şərait və həyata keçirilən ardıcıl tədbirlər hərəkətin təhlükəsizliyini və intensivliyini təmin etmişdir. Yola saldığımız ilin dekabr ayında Culfa Lokomotiv Deposunda elektrovozlar 3, teplovozlar isə 2 dəfə texniki baxışdan keçirilmişdir. Bu dövr ərzində 26 vaqon, o cümlədən 4 platforma, 18 yük vaqonu, 4 sərnişin vaqonu cari təmir edilmişdir. Qış mövsümündə sərnişinlərin rahat gediş-gəlişlərini təmin etmək məqsədilə vaqonların istilik təchizatının sazlığı daim nəzarətdə saxlanılmış, vaxtında profilaktik tədbirlər həyata keçirilmişdir.

Qatarlarla yanaşı, relslərin və digər yol mexanizmlərinin işləkliyi də daim diqqətdə saxlanılır. İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün müvafiq tədbirlər görülmüşdür. Xidməti ərazidəki bütün keçidlər, yol yatağı, yoldəyişdirici və süni qurğular yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılmış və digər təhlükəsizlik tədbirləri həyata keçirilmişdir. Həmçinin rels dövrələrinin dəqiq və səlis işinin təmini məqsədilə müvafiq izolyasiya işləri görülmüş, 53 mis rels birləşdiricisi qaynaq edilmiş, 20 yararsız ağac şpal dəmir-beton şpalla əvəz edilmişdir. Defektoskop briqadası tərəfindən 79 kilometr baş yol, 16 kilometr stansiya yolları, 28 dəst yoldəyişdirici qurğu və 3800 ədəd qaynaq calağı yoxlanılmış, 1565 rezin altlıqdan istifadə olunmuşdur. Xidməti ərazilərdə müşahidə olunan nasazlıqlar aradan qaldırılaraq yol yenidən tikilmişdir.

Rabitə və işarəvermə sahəsi üzrə stansiyalarda qatarların hərəkətinin təhlükəsizliyinin təmini məqsədilə 20 ədəd müxtəliftipli rele dəyişdirilmişdir. Dərəşam və Nehrəm stansiyalarında dəvətedici siqnallar yenisi ilə əvəz olunmuş, Qarabörk-Naxçıvan mənzilində magistral kabelin izolyasiyası texniki normaya uyğunlaşdırılmış, muftalar yenisi ilə əvəz olunmuşdur.



Qış mövsümündə dəmiryol obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə hazırlıq işləri davam etdirilir. Belə ki, dekabr ayı ərzində alçaq və yüksəkgərginlikli elektrik verilişi xətlərində və kontakt şəbəkəsi xəttində təmir işləri aparılmış, 28 yararsız izolyator, 10 kilovoltluq xətt ayırıcısı, travers, 3 kontakt şəbəkəsi dayağında yük kompensatorunun trosu dəyişdirilmiş, 9 dayağın fərdi torpaqlanması bərpa edilmişdir. Stansiyaların hər birində bütün inzibati, texniki və yardımçı binalarında istifadə olunan elektrik xətləri yoxlanılmış, parkların, yükvurma və yükboşaltma meydançalarının işıqlandırılması təmin edilmişdir.

Ümumiyyətlə, ötən ilin dekabr ayında görülmüş işlər nəticəsində Ordubad-Vəlidağ sahəsində hərəkətdə olan yük-sərnişin qatarlarının fasiləsiz işi təmin olunmuşdur. 2014-cü ili uğurlu nəticələrlə başa vuran Naxçıvan dəmiryolçuları növbəti ildə də hərəkətin təhlükəsizliyinin, yük və sərnişin daşımalarının etibarlılığının təmin olunması istiqamətində səylə çalışacaqlar.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

*XXI əsrin daha bir ili arxada qaldı. Muxtar respublikanın tarixinə "Muxtariyyət ili" kimi yazılmış 2014-cü ildə bütün qurumlar kimi, vergi orqanları da qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün səy göstərmiş, bir sıra uğurlara imza atmışlar.*

## Ötən il operativ vergi nəzarəti tədbirləri diqqət mərkəzində saxlanılıb

Bununla bağlı nazirliyin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyevə müraciət etdik. O bildirdi ki, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 138 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 32 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 42 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanmışdır.

Operativ vergi nəzarəti tədbirləri zamanı 2 vergi ödəyicisində 2 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlanmadan işə cəlb edilməsi, 22 nəfər fiziki şəxsin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 23 nəfərin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olması, 7 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilmişdir.

Müsahibim onu da vurğuladı ki, nəzarət tədbirləri zamanı 10 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanmış və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər həyata keçirilmişdir.

Aparılan operativ nəzarət işləri zamanı tətbiq edilmiş 17680,00 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilmişdir.

Qeyd olunan dövr ərzində 82 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması başa çatdırılmış, vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 18 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılmış və müşahidəyədək olan dövrlə müqayisədə 31766,6 manat dövriyyə artımına nail olunmuşdur. Bu da hər bir vergi ödəyicisinə məxsus hər bir obyekt üzrə orta hesabla ay ərzində 35,3 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

"Əlavə olaraq görülən tədbirlər nəticəsində 2014-cü ilin ilk 10 ayı ərzində bank orqanları tərəfindən ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarda qoyulmuş 651 ədəd POS-terminalın vergi orqanlarından qeydiyyatdan keçirilməsi təmin edilmişdir. Bu işlər sürətlə davam etdirilir", – deyən Rəşad Əliyev onu da bildirdi ki, Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən, işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmaların aparılması mütəmadi olaraq davam etdirilir. Belə ki, 298 nəfər işəgötürəndə aparılmış araşdırmalar zamanı 242 yeni əmək müqaviləsinin bağlanmasına, 514 əmək müqaviləsində isə əməkhaqlarının real əməkhaqları səviyyəsində göstərilməsinə nail olunmuşdur.

Operativ vergi nəzarəti tədbirləri 2015-ci il ərzində də davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**



## Naxçıvan Beynəlxalq Hava Limanı 2015-ci ildə sərnişinlərə nümunəvi xidmət göstərəcəkdir

**Blokada şəraitində yaşayan Naxçıvan üçün hava nəqliyyatının əhəmiyyəti olduqca böyükdür. Paytaxt Bakıya və ölkəmizin digər bölgələrinə, eləcə də xarici ölkələrə rahat və təhlükəsiz gediş-gəlişin təşkil olunması məqsədilə Naxçıvan Beynəlxalq Hava Limanının fasiləsiz fəaliyyəti diqqət mərkəzində saxlanılır. Bu məqsədlə hava limanında hər ay lazım olan bütün tədbirlər görülür, maddi-texniki təminat gücləndirilir.**

2014-cü ili uğurla başa vuran hava limanında ötən ilin sonuncu ayında da sərnişinlərə nümunəvi xidmət göstərilmişdir. Ötən ay ərzində yerli hava xətti ilə 12 min 171 sərnişin, 200 min 894 kiloqram baqaj, 62 min 972 kiloqram yük və 2 min 849 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva istiqaməti üzrə 88 sərnişin, 1552 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 223 sərnişin və 1515 kiloqram baqaj daşınmışdır.

Muxtar respublikada nəqliyyatın digər növləri kimi, hava nəqliyyatına da tələbat getdikcə artır. Bu da, öz növbəsində, xidmətin keyfiyyətinin yüksəldilməsini tələb edir. Buna görə də hava gəmilərinin, maşın-mexanizmlərin və digər texniki avadanlıqların sazlığı və səmərəli fəaliyyəti hər zaman diqqət mərkəzində saxlanılır. Xüsusilə hava gəmilərinə tələbata uyğun mütəmadi texniki qulluq göstərilir. Bu istiqamətdə işlər hesabat ayında da davam etdirilmiş, təyyarələrin buzlaşmaya qarşı emalı üçün istifadə edilən xüsusi mayelər laboratoriya analizindən keçirilmiş və istifadə üçün tam yararlı olduğu təsbit olunmuşdur. Həmçinin texniki heyətlə müntəzəm olaraq buzlaşmaya qarşı emal prosesi mövzusunda nəzəri və praktik məşğələlər də keçirilmişdir.

Uçuşların elektrik-işıq texnikası təminatı və istilik və sanitariya texnikası ilə təchizat xidmətlərinin də normal fəaliyyəti üçün vaxtında bütün hazırlıqlar görüldüyündən bu sahələrdə heç bir problem yaşanmamışdır. 2014-cü ilin dekabr ayında teleskopik traplar üçün yeni elektrik xətləri çəkilmiş, aerovağzal kompleksinin nasosxanasında, qazanxana və inzibati binalarda istilik sistemləri cari təmir olunmuşdur.

Xidmətin fasiləsiz təşkili üçün yanacaq-sürtgü materiallarına olan tələbatın vaxtında ödənilməsi vacib şərtdir. Buna görə də yanacaq-sürtgü təminatı diqqət mərkəzində saxlanılır. 2014-cü ilin dekabr ayında da bu istiqamətdə lazımi işlər yerinə yetirilmiş, yanacaqdolduran maşınlar yoxlamadan keçirilmişdir. Bu dövr ərzində 272 min litr TS-1, 98 min 800 litr dizel, 36 min litr A-92 tipli yanacaq daşınaraq yanacaq-sürtgü materialları anbarına mədaxil edilmişdir.

Hesabat dövründə texnoloji avadanlıqların istismarı və təmiri sahəsi üzrə də müvafiq işlər görülmüşdür. Qeydiyyat bölməsində və digər sahələrdə quraşdırılan kompüterlərə, sərnişinlərin təyyarəyə buraxılış və yük bölmələrində yerləşən monitorlara, metalaxtaranlara texniki baxış keçirilmiş, onların işləmə rejimi nəzarətdə saxlanılmışdır.

Ümumiyyətlə, Naxçıvan Beynəlxalq Hava Limanı 2014-cü ili uğurla yekunlaşdırmışdır. Hava limanının işçi heyəti 2015-ci ildə də qarşıda duran vəzifələrin icrasını lazımi səviyyədə yerinə yetirəcək, əhaliyə nümunəvi xidmət göstərəcəkdir.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti göstərilir

Həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş informasiya və kommunikasiya texnologiyalarının inkişafı muxtar respublikamızda böyük önəm verilən sahələrdən biridir. Çünki müasir dünyada sürətli informasiya mübadiləsi olmadan inkişafı təsəvvür etmək mümkün deyil. Bu səbəbdən muxtar respublikamızda informasiya və yeni texnologiyaların inkişafı 2014-cü ildə də diqqətdə saxlanılıb. Bəhs olunan dövrdə Naxçıvan şəhəri, Şərur və Sədərək rayonlarından sonra Şahbuz və Babək rayonlarında 3-cü nəsil telekommunikasiya sistemlərinin quraşdırılması başa çatdırılıb. Hazırda bu sistem mövcud telefon istifadəçilərinin 65 faizinə xidmət göstərir. Bundan başqa, 242 kilometr uzunluğunda Ordubad-Sədərək alternativ fiber-optik magistral kabel xəttinin tikintisi yekunlaşdırılıb.

Görülmüş tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti göstərilir. İnformasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür. Ötən il bu tədbirlərin tərkib hissəsi kimi Elektron İmzanın Sertifikat Mərkəzi yaradılıb və "Elektron imza"nın tətbiqinə başlanılıb. Hazırda muxtar respublikanın bütün yaşayış ərazilərində sosial paketdə olan 12 televiziya kanalının rəqəmsal yayımı təmin edilir.

# Cəmiyyətdə yaşamaq haqqı

## Dövlət proqramı ötən il bu amala stimul oldu

*Söhbət cəmiyyətdə fiziki yox, mənəvi baxımdan yaşamaqdan gedir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məqsədyönlü və praqmatik tədbirlər hər bir sakinin mənəvi-psixoloji durumunu yaxşılaşdırır, insanlara mənən yaşamaq haqqı verir. Bunun nəticəsidir ki, muxtar respublikada hər kəsi dövlətdən razı salacaq gerçəklik formalaşıbdır.*

Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı vətəndaşların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan insanların gələcək taleyini müəyyənləşdirir. Bu parametrlər içərisində, konkret olaraq, sağlamlıq imkanları məhdud uşaqların təhsil məsələsi diqqəti cəlb edir.

Son illər muxtar respublikada dövlət tərəfindən müəyyən olunmuş prioritetlər sırasında təhsilin inkişafı xüsusi yer tutur. Bu sahədə islahatlar aparılır, ən mütərəqqi üsullar, yeniliklər tətbiq edilir. Bu, fasiləsiz prosesdir və muxtar respublikanın sosial-iqtisadi inkişafı bunun həmişə davam edəcəyinin qarantıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə müəyyənləşdirilən zəruri tədbirlər, bütövlükdə, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi və onların hərtərəfli təhsil almaları sahəsində modernləşmə və yeniləşmənin tərkib hissəsi kimi qəbul edilməlidir. Bu qəbildən olan uşaqlar və onların ailə üzvləri bu səpkidə tədbirlərin ardıcıl surətdə davam etdiriləcəyinə və müsbət nəticələr əldə ediləcəyinə inanırlar. Bunun üçün kifayət qədər əsaslar var. Hər bir valideyn fərqinə varır ki, onun sağlamlıq imkanları məhdud övladının təhsilə cəlbi aidiyyəti orqanların daim diqqət mərkəzindədir, onlarla əlaqə saxlanılır, maarifləndirici söhbətlər aparılır, dövlətin humanist və həssas münasibəti bu orqanlar vasitəsi ilə hər zaman aydın hiss olunur.

Müasir dövrdə dövlət üçün ən vacib olanı vətəndaşlarının hər birindən maksimum faydalanmaqdır. Nəzərə alsaq ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar iki minin civarındadır, bu zaman məsələnin ciddiliyi bir az da artır. Sözsüz ki, bu uşaqlar gələcəkdə, əsasən, vətəndaş olaraq intellektlərini ortaya qoymaqla və peşə sahibi kimi dövlətə xidmət edə bilərlər. Ona görə də bu qəbildən olan uşaqların təhsilə cəlbi aktual məsələdir. Əgər bu uşaqlara daha yaxşı təhsil verilsə, onlar potensiallarına uyğun peşəyə yiyələnsələr, bunun həm özlərinə, həm də dövlət və cəmiyyətə faydası olar. Çünki sağlamlıq imkanları məhdud uşaqları kütlədən ayıranda onlar həm yükə çevrilir, həm də bütün həyatları asılılıq içində keçir.

"2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın ən başlıca üstünlüyü sağlamlıq imkanları məhdud uşaqlarla digər uşaqların birgə təhsilini təşkil etməklə bu uşaqları erkən yaşlarında cəmiyyətin axarına qoşmaqdır.

Dövlət proqramının müvafiq bəndlərinin icrası ilə bağlı aidiyyəti təşkilatlar kimi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də ötən il ərzində qarşıya qoyulan vəzifələri həyata keçirməyə çalışmışdır. Belə ki, dövlət proqramına uyğun olaraq, muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 1969 uşaqdan 323 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyən edilmiş və onlar haqqında məlumat bazası yaradılmışdır. Əqli və fiziki potensialları nəzərə alınaraq 19 nəfər məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən uşaq bağçalarına cəlb edilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların fiziki və əqli inkişafını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə "Naxçıvanım mənim" mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər müəssisələr arasında müsabiqə keçirilmiş, 32 nəfər sağlamlıq imkanları məhdud uşaq həmin müsabiqədə iştirak etmişdir. Eləcə də 61 nəfər sağlamlıq imkanları məhdud uşağın iştirakı ilə rəsm, əl işləri, musiqi müsabiqələri və şahmat yarışı keçirilmiş, qaliblərə və iştirakçılara diplom və hədiyyələr verilmişdir.

Ötən il 4 dəfə rayon (şəhər) İcra hakimiyyətləri və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarında təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün 139 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə kurslar təşkil edilmişdir. Kurslarda məktəbəqədər müəssisələrin müvafiq işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə məruzələr dinlənilmiş və tədbir iştirakçılarına mövzuya uyğun əyani vəsaitlər paylanılmışdır.

Proqrama uyğun olaraq, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə muxtar respublikanın tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqların, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə tədbir keçirilərək maarifləndirici söhbətlər aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır. Bundan əlavə, muxtar respublikanın 33 uşaq müəssisəsində keçirilmiş monitorinq və seminarlarda müəllim, uşaq və valideynlər arasında müvafiq mövzuda söhbətlər aparılmış, 2650-dən çox maarifləndirici broşürlər paylanılmışdır.

Komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud 12 uşağın bacarıq və maraqları nəzərə alınaraq, onlar musiqi məktəblərinə cəlb edilmişlər. Sağlamlıq imkanları məhdud 8 uşaq Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin dərnəklərinə, 14 nəfər muxtar respublikada fəaliyyət göstərən müxtəlif idman qruplarına cəlb olunmuşlar.

Komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə biliklərinin artırılması məqsədilə 12 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunmuş məşğələyə cəlb edilmişdir.

Ümumiyyətlə, proqramın icrası ilə bağlı 2014-cü il ərzində komitə tərəfindən 1438 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 19 nəfər uşaq bağçalarına, 8 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 66 nəfər ümumtəhsil məktəblərinə (bunlardan 64-ü I siniflərə), 14 nəfər idman və şahmat məktəblərinə, 12 nəfər uşaq musiqi məktəblərinə, 8 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 8 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə və 12 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə yönləndirilmişdir. Müvafiq xəstəliyi olan uşaqlar üçün komitə tərəfindən qanvermə aksiyası təşkil olunmuş, 7 litrə yaxın müvafiq qruplardan olan qan toplanılaraq həmin uşaqlara köçürülmək üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına təhvil verilmişdir.

Bu gün sözügedən proqram sayəsində muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi, nəticə olaraq, cəmiyyətə inteqrasiyası ən yüksək səviyyəyə çatıb. Bir sözlə, proqramda bu sahədə nəzərdə tutulan tədbirlər və qarşıya qoyulan vəzifələr bu zamana qədər mövcud olan analoji tədbirlərlə müqayisədə uğurlu və bitkin modeldir.

Dövlət proqramında nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi, mahiyyət etibarilə, bu sahədə ən mühüm islahatdır. Bununla sağlamlıq imkanları məhdud uşaqların təkcə təhsilə cəlbi deyil, həm də cəmiyyətə inteqrasiyasının mütəşəkkil, yeni metodu tətbiq edilməyə başlanılıb. Konkret fəaliyyətə gəldikdə isə qeyd etməyi vacib bilirəm ki, görülən işlərlə əlaqədar intensiv dəyərləndirmələr, təhlillər aparılır, zəruri məsələlər diqqət mərkəzində saxlanılır. Hesab etmək olar ki, muxtar respublikada təhsil sahəsində sağlamlıq imkanları məhdud uşaqlarla digər uşaqlar arasında olan fərqin aradan qalxmasına çox yaxınlaşılıb və biz yaxın zamanlarda aradakı məsafənin tamamilə tükənəcəyinin şahidi olacağımıza ümid edə bilərik.

***Bütün bunların məntiqi nəticəsi kimi, əldə edilən və gözlənilən uğurlar milli gücü daha da artıracaq, yaxın gələcəkdə muxtar respublikada yeni bir cəmiyyət formalaşdıracaqdır. Bu cəmiyyət sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər bir vətəndaşı özündə birləşdirəcək, dövlətimizin qüvvətlənməsi naminə gələcəyə daha inamlı baxışları ilə fərqlənəcək. Çünki cəmiyyətin hər bir üzvü möhkəm dayaqlar üzərində qərar tutan fəal vətənpərvər, təhsilli, bilikli olacaqdır. "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" təkcə əhatə etdiyi zaman kəsiyində yox, hələ uzun illər bu sahədə inkişafın və nailiyyətlərin əsası kimi çıxış edəcək.***

**Sahir RÜSTƏMOV**
**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri**

---

# "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibləri

*Muxtar respublikamızda təhsilin inkişaf etdirilməsi, müasirləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün zəruri tədbirlər həyata keçirilir. Hər il muxtar respublikamızın müxtəlif ünvanlarında məktəb binaları tikilərək və ya yenidən qurularaq istifadəyə verilir. Yeni təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılır, fənn kabinələri, laboratoriyalar istifadəyə verilir, müasir informasiya və kommunikasiya texnologiyaları tətbiq olunur. Doğma diyarımızda təhsilə göstərilən qayğı, yaradılan hərtərəfli şərait isə bəhrəsiz qalmır. Hər il ali məktəblərə sənəd verən abituriyentlərin qəbul imtahanlarında yüksək bal toplamaları göstərilən qayğının müsbət nəticələrindən xəbər verir.*

2007-2008-ci tədris ilindən ölkə təhsili tarixində ilk dəfə olaraq "Ən yaxşı müəllim" və "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələrinin keçirilməsinə başlanılması təhsilə böyük önəm verildiyinin daha bir göstəricisidir. Böyük bir ziyalı nəslinin yaranmasına vəsilə olan müəllimlərə bu ehtiram, əslində, həm də dövlətin nüfuzu, cəmiyyətin daha da inkişafı üçün atılan addımdır.

Ötən ilin sonlarında ölkəmizin pedaqoji ictimaiyyətini dövlət başçısının növbəti sərəncamları sevindirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 17 dekabr tarixli sərəncamları ilə 2013-2014-cü tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrində müvəffəqiyyət qazanan ümumtəhsil məktəbləri və müəllimlər mükafatlandırıldı. Təbii ki, onlar arasında muxtar respublikamızda fəaliyyət göstərən müəllimlər və məktəblər də vardır. Babək qəsəbə tam orta məktəbi, Naxçıvan şəhər 9 nömrəli tam orta məktəb, Şahbuz şəhər 2 nömrəli tam orta məktəb müsabiqənin qalibləri sırasındadır. Müsabiqənin qalibi olmuş bu məktəblər 10000 manat məbləğində birdəfəlik pul mükafatları ilə mükafatlandırılıblar.

**Babək qəsəbə tam orta məktəbinin binası müasir tələblər səviyyəsindədir**



2007-ci ildə məktəb üçün yeni bina tikilərək istifadəyə verilib. Yaradılan tədris şəraiti, istifadəyə verilən fənn laboratoriyaları və kabinələri şagirdlərin dərsləri daha yaxşı mənimsəmələrinə, yüksək təhsil uğurları qazanmalarına imkan verir. Məktəbin müəllimlərindən Gülxar Novruzova, Xumar Zeynalova "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüblər. Göstərilən qayğı müqabilində müəllimlər işlərini günün tələbləri səviyyəsində qurmağa çalışır, məktəbin uğurlarını artırırlar. Buna görədir ki, hər il qəbul imtahanlarında məktəbin qəbuldakı həm kəmiyyət, həm də keyfiyyət faizi yüksəlir. Ötənilki qəbul imtahanlarında məzunlardan 19 nəfəri ali məktəb tələbəsi adını qazanıb. Onlardan Sevinc Nəcəfova 584, Əfsanə Bünyadzadə 543 bal toplayıb.

**Mükafata layiq görülən qabaqcıl təhsil ocaqlarından biri də Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbidir**



Məktəbin pedaqoji kollektivi 75 nəfərdən ibarətdir. Təhsil ocağının müəllimlərindən Yaşar Vəliyev 2005-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. Məktəbin yaddaqalan göstəricilərindən biri də Azərbaycanda keçirilən fənn olimpiadasında qazandığı uğurlu nəticədir. Ötən tədris ilində məktəbin şagirdləri müxtəlif fənlər üzrə olimpiada qalibləri olublar. Qazanılan uğurlar, hər şeydən əvvəl, özünü ali məktəblərə qəbulun dinamikasında, yüksək bal toplayan məzunların sayının artmasında da göstərir. Belə ki, 2013-2014-cü tədris ilində ali məktəblərə sənəd verən 28 məzundan 24 nəfəri müxtəlif ali təhsil müəssisələrinə, 3 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunub. Onlardan Şəhla Sayılova 665, Fatimə Əliyeva 626, Aişə Abbasova 503, Cəlalə Xəlilova 500 bal toplayaraq təhsil aldıqları məktəbin adını daha da ucaldıblar.

Məlumat üçün deyək ki, Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin binası 1970-ci ildə tikilmişdi. Son illərdə muxtar respublikada həyata keçirilən quruculuq işlərindən bu məktəbə də pay düşüb. Belə ki, məktəb üçün tikilən 630 şagird yerlik binada son tamamlama işləri görülür. Müasir tələblər səviyyəsində inşa olunan binada yaradılan tədris şəraiti bundan sonra daha yüksək təhsil uğurları qazanmağa imkan verəcəkdir.

**Şahbuz şəhər 2 nömrəli tam orta məktəbi də müsabiqənin qalibidir**



Məktəbin müəllimlərindən Havva Həsənəliyeva "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb. Müəllimlərdən Ruqiyyə Salmanova isə ötən il "Tərəqqi" medalı ilə təltif edilib. Adıçəkilən məktəb də hər il qəbul imtahanlarında yüksək nəticələr göstərir. 2013-2014-cü tədris ilində məktəbin məzunlarından 8 nəfər ali məktəblərə sənəd verib. Onlardan 7 nəfəri tələbə adını qazanıb. 4 nəfər isə 500-700 intervalında bal toplayıb.

Hər üç məktəbin pedaqoji kollektivləri ilə sözügedən sərəncamdan sonrakı görüşlərimiz zamanı söhbətlərimizdə onlar dövlətimiz tərəfindən məktəblərə və müəllimlərin əməyinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirdilər. Onu da xüsusi vurğuladılar ki, ölkə başçısının bütün çıxışlarında, elm-sənət adamları ilə görüşlərində səmimiyyətlə söylədiyi, artıq aforizmə çevrilən bir kəlamı var: ***"Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik".*** Bunu artıq hər bir təhsil işçisi bir vəzifə kimi qəbul edir. Təhsil işçiləri ölkəmizdə kifayət qədər intellekt kapitalının formalaşması üçün bundan sonra da səy və əzmkarlıq göstərəcəklər.

**Sara ƏZİMOVA**



Təbiət və biz

# Faunanın qorunmasında biotexniki tədbirlər mühüm əhəmiyyət daşıyır

*Müxtəlif mövsümlərdə havanın dəyişməsi, təbii olaraq, muxtar respublika ərazisində yaşayan heyvanat aləminə də öz təsirini göstərir. Məlum olduğu kimi, bir çox heyvanın qidaya olan tələbatı qış fəslində artır. Bu isə heyvanların alternativ qida mənbələrini axtarmasına, bəzən də miqrasiyasına səbəb ola bilir. Belə ki, müxtəlif növ gəmirici heyvanlar (dovşan, porsuq, çöl donuzu və sair) istər qış, istərsə də yaz aylarında yem tapa bilmədiklərindən yeni əkilmiş ağac və tinglərin gövdə hissələrindən qidalanmağa başlayırlar. Nəticədə, xüsusi mühafizə olunan təbiət ərazisindəki tinglərin gövdələri ciddi şəkildə zədələnir və onlarda gedən vegetasiya prosesi zəifləyir. Bu isə yeni əkilən ağacların inkişafını aşağı salır, hətta onların məhv olmasına səbəb olur. Buna görə də qoruq ərazisində olan heyvanların yemlənməsinə və qorunmasına çox ciddi diqqət yetirilir. Mövzu ilə bağlı Şahbuz Dövlət Təbiət Qoruğunun direktoru, biologiya üzrə fəlsəfə doktoru Mürsəl Seyidova bir neçə sual ünvanladıq:*

***– Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisi, ərazidəki heyvanlar, quşlar, bitkilər haqqında ümumi olaraq nə deyə bilərsiniz?***

– Məlum olduğu kimi, fauna ehtiyatları, əsasən, xüsusi mühafizə altında olan təbiət ərazilərində olur. Bizim qoruğumuzda da nəsli kəsilməkdə olan və nadir rast gələn heyvanlar, quşlar, bitkilər vardır. Qeyd edim ki, dəniz səviyyəsindən 2450 metr yüksəklikdə olan Batabat yaylağı ərazisindəki 3139 hektar sahəni əhatə edən Şahbuz Dövlət Təbiət Qoruğunda hazırda 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur. Əsasən, vaşaq, qonur ayı, oxlu kirpi, bezoar keçisi, xəzər uları, kəklik və başqa bir çox heyvan və quş növləri muxtar respublikamızda "Qırmızı Kitab"a daxil olan heyvanlardır ki, bizim qoruqda da bu heyvan növləri yaradılan şərait nəticəsində artıb çoxalmaqdadır. Bildiyiniz kimi, 2003-cü il iyun ayının 16-da ulu öndərimiz Heydər Əliyev böyük uzaqgörənliklə Şahbuz Dövlət Təbiət Qoruğunun yaradılması ilə bağlı Fərman imzalayıb. O vaxta qədər qoruq ərazisində olan heyvanların, quşların və bitkilərin bəzilərinin sayı az idi. Lakin qoruq elan olunan ərazidə dövlət qayğısı ilə həyata keçirilən tədbirlər, görülən işlər nəticəsində bu gün hətta nəsli kəsilməkdə olan heyvanların, quşların baş sayının artımı müşahidə olunmaqdadır. Faunanın və floranın qorunması işində dövlət tərəfindən göstərilən qayğı ən böyük amildir.

***– Faunanın qorunması, artıb çoxalması, yaqin ki, əsas vəzifə kimi qarşınızda durur. Bu vəzifənin yerinə yetirilməsi məqsədilə hansı işlər görülür?***

– Həyata keçirilən tədbirlərdən ən əsası heyvanların payız və qış dövründə normal yaşayışı üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən lazımi tədbirlərin görülməsidir. Bunun sayəsində biotexniki tədbirləri mütəmadi olaraq həyata keçirə bilirik. Qeyd etmək istəyirəm ki, bu tədbirlərin əhatə dairəsi ilbəil genişləndirilir.

Hər il muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Şahbuz rayonu ərazisində də yüz hektarla sahələrdə yeni meşə zolaqları və meyvə bağları salınır. Əgər ötən illərdə həyata keçirilən biotexniki tədbirlər yalnız xüsusi mühafizə olunan təbiət ərazilərini əhatə edirdisə, indi bu tədbirlər yeni əkilmiş yaşıllıq zolaqlarında və meyvə bağlarında da geniş şəkildə aparılır. Ötən illərdə də həmişə faunanın mühafizəsi məqsədilə Batabat yaylağı ərazisində olan Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisinə payız və qış aylarında dəfələrlə daşduz, buğda, quru ot və meyvə-tərəvəz qalıqları səpilib. 2015-ci ildə də mövsüm ərzində belə biotexniki tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd müxtəlif yemlərlə qidalanan heyvanların tələbatlarının qoruq ərazisində normaya uyğun ödənilməsi və onların tələf olmasının qarşısını almaqdır. Bu tədbirlər qış mövsümü başa çatana kimi davam etdirilir. Bu səbəbdəndir ki, quşların və heyvanların ərazidən uzaqlaşması hallarına rast gəlinmir. Müxtəlif növ heyvanların qoruq ərazisində artıb törəməsi də onu göstərir ki, məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər öz bəhrəsini verir.

***– Bildiyimiz kimi, qoruq ərazisində onlarla quş növü də məskunlaşıb. Onların yemə olan tələbatının vaxtlı-vaxtında ödənilməsi sayəsində quşların da mövsümlə əlaqədar olaraq miqrasiyasının qarşısını almaq mümkün olurmu?***

– Əlbəttə. Qoruğun ərazisində olan 127 növ quşun burada daimi məskunlaşması üçün aparılan biotexniki tədbirlərin böyük əhəmiyyəti vardır. Çünki ərazimizdə olan köçəri quşların, müvəqqəti məskunlaşmış və daimi yaşayış yeri olan quşların burada nəsil verməsi, sayının çoxalması, onların soyuq havalarda tələf olmaması üçün biotexniki tədbirlərin mütəmadi aparılmasının böyük əhəmiyyəti vardır.

Batabat yaylağında ilin 6-7 ayı soyuq havalarla müşayiət olunur. Elə buna görə də heyvanların, quşların yemlənməsinə ciddi diqqət yetirilməlidir ki, onlar aclıqdan tələf olmasınlar. Bunun üçün biz vaxtlı-vaxtında qoruq ərazisinə quş yemlərinin və başqa ərzaq qırıntılarının səpilməsinə diqqət yetiririk. Ona görə də qoruq yaradılan ilk vaxtlardan fərqli olaraq, nəsli kəsilməkdə olan xəzər ularının və kəklik növlərinin sayı getdikcə artmaqdadır. Bu isə biotexniki tədbirlərin davamlı həyata keçirilməsinin müsbət nəticəsidir. Biz çalışırıq ki, qoruğumuzda olan flora və faunanın hərtərəfli mühafizəsinə nail olaq. Çünki insanın sağlamlığı, yaxşı yaşayışı, təminatı təbiətlə üzvi şəkildə bağlıdır. Bu mənada biz onu qorumalıyıq ki, o da bizi yaşatsın. Bunun üçün də dövlətimiz tərəfindən yaradılan şəraitdən istifadə edərək biz də öz vəzifə borcumuzu yerinə yetirmək üçün imkanlarımızı səfərbərliyə almağa çalışırıq.

***– Maraqlı müsahibə üçün sağ olun!***

***P.S.*** *Məlumdur ki, təbiətlə insan arasında bir balans mövcuddur ki, bu balansın da hər hansı bir təsirlə pozulması insanın və təbiətin məhvinə səbəb ola bilər. Ona görə də hər bir insan onu yaşadan təbiətin qoruqçusu olmalı, həmçinin fauna və floranın zənginləşməsinə öz köməyini göstərməlidir. Bunun üçün dövlətimiz tərəfindən də lazımi diqqət və qayğı göstərilir, şərait yaradılır. Bir qalır, vicdanla zəhmətə qatlaşmaq, təbiətə vurğunluqla ona qayğı göstərmək. Torpağın, havanın, suyun, odun birliyindən yaranmış kainatımızın qorunmasına hamı çalışmalıdır. Çünki bəşər övladının yaşayışı üçün təbiətin varlığı şərtdir.*

**Söhbəti qələmə aldı:**
**Şəhla NƏBİYEVA**

# Naxçıvanlı həkim kəskin miokard infarktı keçirmiş xəstənin həyatını xilas edib

Ötən il dekabr ayının son günlərində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə ağır vəziyyətdə olan bir xəstə gətirildi. Kəskin miokard infarktı keçirdiyindən xəstənin ürəyində sağ koronar arteriya tamamilə tutulmuş, ürəyin dayanması müşahidə olunmuşdu. Xəstənin həyatı üçün təhlükə yarandığından stent implantasiyasına zərurət yaranmışdı. Belə mürəkkəb əməliyyatlar isə indiyədək Bakı şəhərindən gəlmiş yüksəkixtisaslı kardioloq-cərrahlar tərəfindən həyata keçirilirdi. İndi isə onları gözləməyə ehtiyac yox idi. Mərkəzin kardioloq-angioqrafı Nail Mehbalıyev yüksəkixtisaslı kardioloq-cərrahlarla onlarla belə xəstəni həyata qaytarmışdı. Özü isə ötən ildən müstəqil şəkildə xəstələr üzərində stent implantasiyası həyata keçirməyə başlamışdı. Odur ki, vaxt itirmədən işə başladı...

Ürək-damar xəstəlikləri arasında ən çox rast gəlinəni ürəyin işemik xəstəliyidir. Belə hallarda xəstələrin həkimə müraciəti miokard infarktı baş verdikdə olur. Yaxud xəstəlik qəflətən koronar ölümlə nəticələnir. Xəstəliyin diaqnostikasında geniş istifadə olunan invaziv kardiologiya artıq 10 ildir ki, Azəbaycanda da tətbiq edilir. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində fəaliyyət göstərən, Azərbaycan Tibb Universitetinin dissertantı, kardioloq-angioqraf Nail Mehbalıyev artıq üç ilə yaxındır ki, 600-ə yaxın xəstə üzərində koronar angioqrafiya əməliyyatını uğurla icra edib. Son aylarda uzun müddət dərman müalicəsi qəbul etmələrinə baxmayaraq, infarktönü mərhələyə çatan 12 xəstəyə balon və stent implantasiyası həyata keçirib, xəstələr tam sağalma ilə evə buraxılıblar.

Xəstə üçün 90 faiz ölümlə nəticələnən ürək xəstəliyi zamanı həmin mütəxəssis ürəkdaxili kardiostimulyator yerləşdirərək xəstələrin həyatını xilas edib. Həmçinin mürəkkəb ürək qüsurlu uşaqların əməliyyatönü kateterizasiyası və ağciyər arteriyası ağzının daralması, botal axacağın açıq qalması kimi anadangəlmə ürək qüsurlarının invaziv üsulla aradan qaldırılması əməliyyatlarını uğurla həyata keçirib.

Mərkəzin kardioloq-angioqrafı Nail Mehbalıyev invaziv üsulla ürək boşluqları və damarların görüntülənməsi, ürək boşluqları və damarların təzyiqlərinin ölçülməsi, ürəyin atım gücü və hemodinamik göstəricilərin təyini, qapaq xəstəliklərinin dəyərləndirilməsi, şuntların təyini və şunt miqdarının hesablanması, ürək biopsiyası kimi mürəkkəb prosedurların çalışdığı mərkəzdə də həyata keçirilməsinin mümkünlüyünü bildirir.

...Bir neçə saat davam edən əməliyyatdan sonra, nəhayət, əməliyyat bölməsinin qapısı açıldı. Gənc həkimin üzü gülürdü. Onun sevinc dolu çöhrəsi xəstənin həyatının xilas edildiyindən xəbər verirdi. Vaxtında antiaritmik müdaxilə və təcili koronar angioqrafiya, ardınca stent implantasiyası ilə xəstənin miokard infarktı keçirməsinə səbəb olan sağ koronar arteriyanın yüz faiz tutulması tamamilə açılmışdı.

Əlbəttə, muxtar respublikamızın səhiyyə müəssisələrində aparılan genişmiqyaslı quruculuq işləri, yeni xəstəxanaların tikilərək, yenidən qurularaq istifadəyə verilməsi, onların ən müasir avadanlıqlarla təchiz edilməsi Nail Mehbalıyev kimi ixtisaslı gənc kadrların da yetişməsinə stimul olmuşdur. Səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif-profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır.

Nəticədə, yerli həkimlər tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stent qoyulması, laporaskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunub.

Artıq mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatlarının təşkili, heç şübhəsiz, onlara həm maddi, həm də mənəvi dəstəkdir. Hazırda aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stent qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir. Bütün bunlar əhalinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısının parlaq təzahürü, Naxçıvan səhiyyəsinin uğurlarıdır.

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı***

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

*2015-ci il üçün tələb olunan ərzaq məhsullarının satın alınması üzrə açıq tender elan edir*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən ərzaq məhsulları üzrə açıq tender üsulu ilə satınalma həyata keçirilir.

Tenderdə iştirak etmək istəyənlər 25 yanvar 2015-ci il tarixdə saat $13^{00}$-dək Azərbaycan dilində tərtib olunmuş tenderin "Əsas şərtlər toplusu"nu Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsində yerləşən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən ala bilərlər.

Tender iştirakçıları müqaviləni yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin (fiziki şəxsin) adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);

-tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);

-iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə 1 fevral 2015-ci il tarixdə saat $13^{00}$-dək təqdim etməlidirlər. Təklif zərfləri 1 fevral 2015-ci il tarixdə saat $14^{00}$-də yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

***Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi.***
***Əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu***
***Telefon: 544-48-34***


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 17